B) Ata – 63, Dayı – 58, Əmi – 65, Bibi – 60, Xala – 64.
C) Ata – 58, Dayı – 65, Əmi – 60, Bibi – 64, Xala – 63.
D) Ata – 60, Dayı – 65, Əmi – 58, Bibi – 63, Xala – 64.
E) Ata – 65, Dayı – 63, Əmi – 64, Bibi – 58, Xala – 60.

36–37 – ci sualları aşağıdakı mətnə əsasən cavablandırın.

K, L, M, N və T şəxsləri, təşkil olunmuş sənədli film yarışına hərəsi bir filmlə müraciət ediblər. Məlumdur ki:


- Sənədli filmlərdən biri aslanlar, ikisi dəniz canlıları və digər ikisi cəngəlliklər haqqında çəkilmişdir;
- Filmlərdən biri birinci, biri ikinci, biri üçüncü yeri tutub, digərləri mükafat qazanmayıb;
- Eyni mövzuda film çəkən N və T – dən yalnız biri mükafat qazanıb;
- M şəxsi K ilə eyni mövzuda film çəkib və ondan daha yüksək mükafat qazanıb.

36. Buna görə, aşağıdakılardan hansı mütləq doğrudur ?
A) M dəniz canlıları haqqında film çəkib
B) L aslanlar haqqında film çəkib
C) T mükafat qazanmayıb
D) K üçüncü yeri tutub
E) N ikinci yeri tutub

37. T üçüncü yeri tutubsa, aşağıdakılardan hansı mütləq səhvdir ?
A) K – nın əldə etdiyi nəticə T – nin nəticəsindən yaxşıdır
B) K dəniz canlıları haqqında film çəkib
C) M cəngəlliklər haqqında film çəkib
D) M ikinci yeri tutub
E) İlk iki yeri tutan filmlər cəngəlliklər haqqındadır

bilikliol.az

38–40 – cı sualları aşağıda verilən məlumatlara görə cavablandırın.



Şəkildə verilmiş vəziyyətdə olan A, B, C, D, E və F məntəqələri arasındakı bir və iki istiqamətli 6 ədəd yol ilə əlaqəli aşağıdakılar məlumdur:

- Yollar yalnız qonşu məntəqələr arasındadır. C məntəqəsi bütün məntəqələrə qonşudur, qalanları isə özünə ən yaxın üç məntəqə ilə qonşudur. Məsələn, E- nin qonşuları C, D və F-dir ;
- Bir istiqamətli yollar A-dan D-yə, B-dən F-ə və C-dən A-ya doğru gedən yollardır;
- İki istiqamətli üç yoldan biri C və F arasındadır ;
- Həm A, həm də F məntəqələrinin qonşularından yalnız ikisi ilə aralarında yol mövcuddur ;
- B və E məntəqələrinin qonşularından yalnız biri ilə arasında yol mövcuddur.

38. Məntəqələr arasındakı bu yollar haqda aşağıdakı ifadələrdən hansı doğrudur ?
A) D və C məntəqələri arasındakı yol iki istiqamətlidir.
B) E və C məntəqələri arasındakı yol bir istiqamətlidir.
C) B və C məntəqələri arasında yol mövcuddur.
D) A və C məntəqələri arasında iki istiqamətli yol mövcuddur.
E) E və F məntəqələri arasında iki istiqamətli yol mövcuddur.

39. Aşağıdakılardan hansında I-də verilən məntəqədən, II – də verilənə getmək mümkün deyildir?

	I	II
A)	C	F
B)	F	D
C)	B	E
D)	B	A
E)	E	B

40. Aşağıdakı ifadələrdən hansı mütləq səhvdir?
A) B-dən D-yə, A-dan keçməklə getmək olar.
B) F-dən E-yə, D-dən keçməklə getmək olar
C) F-dən D-yə getmək üçün A-dan keçmək vacibdir.
D) A-dan C-yə getmək üçün D-dən keçmək vacibdir.
E) A-dan E-yə getmək üçün D-dən keçmək vacibdir.

41–43- cü sualları aşağıdakı mətnə əsasən cavablandırın.

A, B, C, D , E və F – in hərəsinin bir maşını var. Bu maşınlardan üçü qara, ikisi qırmızı, biri də yaşıl rəngdədir. Maşınların rəngləri haqqında aşağıdakılar məlumdur:

- B və C – nin maşınları eyni rəngdədir;
- F və E – nin maşınları fərqli rəngdədir;
- A – nın maşını qaradır.

41. Aşağıdakılardan hansı mütləq səhvdir?
A) B – nin maşını qaradır.
B) D – nin maşını yaşıldır.
C) C – nin maşını qırmızıdır.
D) F – in maşını qaradır.
E) E – nin maşını yaşıldır.

42. Aşağıdakılardan hansı mütləq doğrudur?
A) D – nin maşını qaradır.
B) E – nin maşını qaradır.
C) F – in maşını qırmızıdır.
D) E və D – nin maşınları eyni rəngdədir.
E) D və C – nin maşınları fərqli rəngdədir.

43. D – nin maşını qırmızı isə aşağıdakılardan hansı mütləq səhvdir?
A) E – nin maşını qırmızıdır.
B) F – in maşını qaradır.
C) F – in maşını yaşıldır.
D) C və E – nin maşınları müxtəlif rəngdədir.
E) F və D – nin maşınları eyni rəngdədir.

44. Qarajdakı bütün BMW-lər sedan tiplidir. Qarajdakı BMW-lər və başqa bir brendi daşıyan avtomobillər xaric, bütün maşınlar offrouder tiplidir. Qarajdakı Fordlar offrouder, Nissanlar heçbek tiplidir. Qarajdakı ən bahalı maşın Mersedes brendini daşıyan maşındır. Mersedes hansı tipə malikdir?
A) Sedan B) Offrouder C) Heçbek D) Heç birinə
E) İlk üç variantın hər biri düzgün hesab oluna bilər.

45. Beş rəfiqə Turan, Lamiyə, Kəmalə, Minayə və Zəminə 5 müxtəlif rəssamlıq, rəqs, şahmat, gimnastika və toxuculuq dərnəyinə gedirlər . Turanın getdiyi dərnək Minayənin getdiyi dərnəyin yaxınlığında yerləşir. Zəminə rəqsi sevmir. Minayə toxuculuq dərnəyinə gedir. Rəssamlıq və toxuculuq bir birinə yaxın yerləşirlər. Aşağıdakılardan hansının doğru olduğunu əminliklə söyləmək olar?
A) Turan toxuculuq dərnəyinə gedir
B) Kəmalə gimnastikaya gedir
C) Turan rəssamlığa gedir
D) Lamiyə rəqsə getmir
E) Zəminə şahmata gedir

46. Elvin , Coşqun və Emil qardaşlarından biri qonşunun evinin pəncərəsini sındırıb. Qonşu qardaşları sorğuya çəkir. Elvin - "Pəncərəni Emil sındırıb.", Coşqun "- Həmin vaxt mən dərslərimi oxuyurdum" . Qonşu bilir ki Elvin həmişə yalan, Coşqun həmişə doğru danışır. Pəncərəni kim sındırıb?
A) Coşqun B) Elvin C) Emil
D) Malik E) şərtlərdə konfilikt var

47. Xatirə, Malik və Əzim üç fərqli A,B,C məktəblərində üç fərqli kimya, riyaziyyat və fizika fənlərindən dərs keçirlər. Fizika fənnini deyən Malikin dostudur. Malik A məktəbində dərs demir. C məktəbində fizika dərsini deyən Əzimlə qonşudur. Əzim kimya dərsini deyir. Malik hansı məktəbdə hansı dərsi deyir?
A) C məktəbi, fizika fənni
B) B məkəbi, fizika fənni
C) B məktəbi, riyaziyyat fənni
D) C məktəni, riyaziyyat fənni
E) A məktəbi, fizika fənni

48. Altı dost - İlkin, Taleh, Elxan, Maral, Günel, Tofiq faciə, komediya və melodram janrlarında olan kinolara bilet alıblar. Dostlar kinolara iki nəfər olmaqla baxırlar. İlkin və Elxan melodram janrında olan kinoya bilet almayıblar. Taleh Maralla eyni kinoya getmir. Maral komediyaya bilet alıb. Günel İlkinlə eyni kinoya gedir. Komediya janrında olan kinoya gedənlər kimlərdir?
A) İlkin və Günel B) Elxan və Maral
C) Taleh və Tofiq D) Taleh və Maral
E) Maral və Günel

49. 100 metrə məsafəyə qaçışda iştirak edən P,Q,R,L,K idmançıları haqqında aşağıdakılar məlumdur:

- Birinci olan 10 saniyəyə qaçmışdır;
- R yarışı Q ilə L arasında bitirib;
- P yarışda axırıncı olmamışdır;
- K ilə Q arasında ən azı iki idmançı yarışı bitirmişdir;
- Hər idmançının vaxt göstəricisi arasında 1 saniyə fərq olmuşdur.

P yarışda birinci olarsa, aşağıdakılardan hansı mütləq səhv olar?
A) Q yarışda dördüncü olmuşdur.
B) K yarışı 11 saniyəyə bitirmişdir.
C) L yarışda 12 saniyəlik nəticə ilə üçüncü olmuşdur.
D) R yarışı Q – dən əvvəl bitirmişdir.
E) P yarışı 10 saniyəyə bitirmişdir.

50. Kitab evində bir rəfdə 1 – dən 7 – yə qədər nömrələnmiş yerlərə 3 fərqli cəbr, 2 fərqli coğrafiya, 2 fərqli tarix kitabları aşağıdakı kimi yanaşı düzüləcəkdir:

- Coğrafiya kitabları yanaşı düzüləcək;
- Tarix kitabları yan – yana və ya ayrı – ayrı düzüləcək;
- Cəbr kitabları yanaşı düzülməyəcək.

Buna görə, tarix kitablarından biri 1 – ci yerə qoyularsa, cəbr kitabları neçənci yerlərə qoyula bilər?
A) 2 – 4 – 7 B) 2 – 3 – 7 C) 2 – 3 – 5
D) 3 – 4 – 7 E) 2 – 4 – 6

51. 6 qatar (P, L, K, M, N, S) müxtəlif vaxtlarda saat 07:00, 08:00, 09:00, 10:00, 11:00, 12:00 – da stansiyadan çıxacaq. Məlumdur ki:

- L və M qatarları S – dən sonra stansiyadan çıxmaz;
- N qatarı M və K – dan əvvəl çıxmaz;
- S qatarı N – dən dərhal sonra, P – dən əvvəl çıxar.

N qatarının stansiyadan çıxma vaxtı saat neçədir?
A) 10:00 B) 08:00 C) 09:00
D) 11:00 E) 12:00

bilikliol.az

52. Eyni universitetdə təhsil alan Aytən, Bəhram, Ceyran, Rauf və Elxan adlı tələbələrdən 4–ü ingilis, 3–ü fransız, 2–si rus və 1–i alman dilini bilir.
Məlumdur ki:

- Hər tələbə 2 dil bilir;
- Fransız dilini bilənlərdən biri qız, ikisi isə oğlandır;
- Bəhram Elxanla yalnız ingilis dilində danışa bilir;
- Aytən və Rauf eyni dilləri bilirlər;

Mətnə əsasən kimlərin hansı dili bildiyi dəqiq məlumdur?
A) Aytən, Ceyran, Rauf B) Ceyran, Elxan, Rauf
C) Bəhram, Rauf, Elxan D) Aytən, Bəhram, Elxan
E) Bəhram, Ceyran, Elxan

53. Şahmat yarışında müxtəlif peşə sahibləri olan altı oyunçu iştirak edirdi: mühəndis, müəllim, həkim, sürücü, çilingər, bənna. Yarış haqqında aşağıdakılar məlumdur:

⇨ Birinci dövrədə A – həkimlə, müəllim – B, Q – Y ilə oynadı. Birinci dövrədə üç oyun oynanıldı;
⇨ İkinci dövrədə T bənnayla, həkim isə B ilə oynadı. İkinci dövrədə iki oyun keçirildi;
⇨ Üçüncü dövrədə Y mühəndislə oynadı. Üçüncü dövrədə bir oyun keçirildi;
⇨ Yarışın sonunda nəticələr belə oldu: B birinci oldu, Q və mühəndis 2 – ci və 3 – cü yerləri tutmuşdular. T 4 – cü yeri tutdu, Z və çilingər isə 5 – ci və 6 – cı yerləri tutdular.

Yarışda 1-ci, 2-ci və 4-cü yerləri tutan şəxslərin peşəsi nə idi?
A) müəllim, sürücü, bənna B) müəllim, bənna, sürücü
C) bənna, sürücü, müəllim D) sürücü, müəllim, bənna
E) sürücü, bənna, müəllim

54–56–cı sualları aşağıdakı məlumatlara görə cavablayın.

Bir marketdə K, L, M, N, P, R, S və T markalı sabunlar satılır. Sabunlar aşağıdan-yuxarıya doğru nömrələnmiş 5 rəfdə yerləşdirilmişdir. Sabunların yerləşdiyi rəflərlə əlaqədar aşağıdakı məlumdur:

⇨ Hər rəfdə ən çox 2 fərqli markanın sabunları yerləşir.
⇨ 3-cü rəfdə ancaq P markalı sabunlar yerləşir.
⇨ N və L markalı sabunlar, S markalı sabunlardan bir rəf yuxarıdadır.
⇨ K markalı sabunlar, T markalı sabunlarla fərqli rəfdə və M markalı sabunlardan bir rəf aşağıdadır.
⇨ R markalı sabunlar, S və M markalı sabunlarla eyni rəfdə deyil.
⇨ S markalı sabun P markalı sabundan aşağı rəflərdən birində yerləşir.

54. Aşağıdakılardan hansı mütləq doğrudur?
A) R markalı sabunlar 1-ci rəfdədir
B) R və K markalı sabunlar eyni rəfdədir
C) L markalı sabunlar 5-ci rəfdədir.
D) M və T markalı sabunlar eyni rəfdədir.
E) M markalı sabunlar 4-cü rəfdədir.

55. Aşağıdakılardan hansı mütləq səhvdir?
A) T markalı sabunlar 1-ci rəfdədir.
B) N markalı sabunlar, T markalı sabunlardan aşağı rəfdədir.
C) R markalı sabunlar, M markalı sabunlardan bir rəf aşağıdadır.
D) S markalı sabunlar 4-cü rəfdədir.
E) L markalı sabunlar, T markalı sabunlardan bir rəf yuxarıdadır.

56. T markalı sabunlar 5-ci rəfdə olarsa aşağıdakılardan hansı mütləq səhvdir?
A) S markalı sabunlar 1-ci rəfdədir.
B) K markalı sabunlar, S markalı sabunların üstündəki rəflərin birindədir.
C) R markalı sabunlar, L markalı sabunların üstündəki rəflərin birindədir.
D) P markalı sabunlar, R markalı sabunların altındakı rəflərin birindədir.
E) N markalı sabunlar 4-cü rəfdədir.

57–**58**-ci sualları verilmiş mətnə əsasən cavablandırın.

Aysel, Bahar, Cəmilə, Davud, Emin və Fuad mağazaların birindən ağ, sarı və qara rəngli 3 cüt ayaqqabı, bir ədəd qara şalvar, bir ədəd yaşıl don, bir ədəd qalstuk, 2 ədəd gözlük almışlar. Bunlarla əlaqəli aşağıdakılar məlumdur:

❖ Gözlüklərin birini kişi, birini isə qadın almışdır.
❖ Qara şalvar alan kişi qalstuk almamışdır.
❖ Yaşıl don alan qadın başqa heçnə almamışdır.
❖ Qalstuk alan kişi, ağ ayaqqabı da almışdır.
❖ Davud yalnız qara ayaqqabı almışdır.
❖ Aysel sarı ayaqqabı və gözlük almışdır.

57. Aşağıdakılardan hansı mütləq səhvdir?
A) Bahar gözlük almışdır.
B) Cəmilə ayaqqabı almamışdır.
C) Bahar yaşıl don almışdır.
D) Cəmilə yaşıul don almışdır.
E) Davud gözlük almamışdır.

58. Qara şalvarı Emin almışdırsa, Fuad ilə bağlı aşağıdakılardan hansı mütləq doğrudur?
A) Qalstuk almamışdır
B) Ağ ayaqqabı almışdır
C) Gözlük almışdır
D) Qara ayaqqabı almışdır
E) Sarı ayaqqabı almışdır

59. S, T, U, V, Y, Z adlı şəxslərin evləri eyni qəsəbədədir. Bu şəxslərin evlərinin yerləri haqqında aşağıdakılar məlumdur:

⇒ S – in evi Z – nin evindən 20 metr qərbdədir;
⇒ T – nin evi Y – in evindən 20 metr qərbdədir;
⇒ V – nin evi U – dan 20 metr qərbdədir;
⇒ Y – in evi V – nin şimal – şərqində, Z – in isə cənubundadır.

Mətnə əsasən U – nun evi T – yə nəzərən hansı istiqamətdədir?
A) Cənub – Şərq B) Şimal – Şərq C) Cənub – Qərb
D) Qərb E) Şimal – Qərb

bilikliol.az

60–61-ci sualları aşağıdakı mətnə əsasən cavablandırın.

Müəllim Əliyə hər biri fərqli rəngdə olan dörd karandaş vermiş və A, B, C, D, E, F hərfləri ilə işarə edilmiş altı qutunu bu karandaşlarla boyayıb, müəyyən qayda ilə sıralamasını tapşırmışdı. Bu qaydalar aşağıdakı kimidir:

- Hər qutu bir rənglə boyanıb;
- Dörd fərqli rəngin hamısı istifadə olunub;
- C qutusu D qutusuna toxunur;
- C və D qutularının hər biri F – ə toxunur;
- A, B, C, D qutularının hər biri E – yə toxunur;
- Yuxarıda verilənlərdən başqa heç bir qutu bir – birinə toxunmur;
- Bir – birinə toxunan iki qutu fərqli rəngdədir.

60. Aşağıdakılardan hansında verilən iki qutu mütləq fərqli rəngdədir?
A) A və B B) B və C C) D və A
D) C və F E) E və F

61. A və F qutuları eyni rəngdə isə aşağıdakılardan hansı mütləq doğrudur?
A) B ilə F fərqli rəngdədir.
B) B – nin rəngi digər qutulardan fərlidir.
C) A və C fərqli rəngdədir.
D) E və F eyni rəngdədir.
E) A və B eyni rəngdədir.

62–**64**-cü sualları aşağıdakı mətnə əsasən cavablandırın.

Yüngül atletika yarışında Kanada, Rusiya, İngiltərə, Almaniya və Yaponiyadan 9 idmançı iştirak etmişdir. Məlumdur ki:

- Yarışa ən çox idmançı ilə qatılan ölkə Rusiyadır;
- Kanada və Yaponiya yarışa bir idmançı ilə qatılmışdır;
- Yarışı ardıcıl bitirən yarışçılardan heç biri eyni ölkədən deyil;
- Yarışın sonunda birinci, beşinci və səkkizinci yeri eyni ölkənin idmançıları tutmuşdur;
- Hər alman idmançının ardından bir rus idmançı yarışı bitirmişdir.

62. Bu məlumatları istifadə edərək, yarışın sonunda hansı 2 ölkənin idmançılarının tutduqları yerləri tapmaq mümkündür?
A) Rusiya və İngiltərə B) Almaniya və Kanada
C) Kanada və İngiltərə D) Rusiya və Kanada
E) Rusiya və Almaniya

63. Mətnə əsasən yapon idmançının yarışı neçənci yerdə bitirməsi mümkün deyil?
A) ikinci B) üçüncü C) dördüncü
D) altıncı E) doqquzuncu

64. Kanadalı idmançı yarışı doqquzuncu yerdə bitirdisə, altıncı yerdə
1. İngiltərə ***2.*** Yaponiya ***3.*** Rusiya
ölkələrindən hansını təmsil edən idmançı bitirmiş ola bilər?
A) Yalnız 1 B) Yalnız 2 C) 1 və ya 2
D) Yalnız 3 E) 2 və ya 3

65–**66**-cı sualları aşağıdakı mətnə əsasən cavablandırın.

Qohumluq əlaqələri haqqında aşağıdakılar məlumdur:
- Məmməd Şamilin atası, Sevdanın əmisidir;
- Şamil Əhmədin dayısı, Vəlinin əmisidir;
- Kamal Sevdanın atası, Həsənin dayısıdır;
- Nuriyə Aygünün bibisi (atasının bacısı), Həsənin xalasıdır.

65. Nuriyə haqqında aşağıdakılardan hansı doğrudur?
A) Vəlinin xalasıdır B) Əhmədin bibisidir
C) Məmmədin bacısıdır D) Kamalın anasıdır
E) Şamilin xalasıdır

66. Aşağıdakılardan hansı mütləq səhvdir?
A) Sevda Həsənin dayısı qızıdır.
B) Kamal Aygünün dayısıdır.
C) Məmməd Vəlinin babasıdır.
D) Şamil Həsənin dayısı oğludur.
E) Əhmədin anası Vəlinin bibisidir.

67. Dördmərtəbəli binanın A və B bloklarının hər mərtəbəsində bir mənzil var. Bu binada yaşayan K, F, L, S, M və T şəxsləri haqqında aşağıdakılar məlumdur:

- B blokunun 1 – ci və 4 – cü mərtəbəsində heç kəs yaşamır;
- L və K fərqli blokda, eyni mərtəbədə yaşayırlar;
- T M – dən 2 mərtəbə aşağıda qalır;
- F S – dən 1 mərtəbə yuxarıda yaşayır;
- M A blokunda ən yuxarı mərtəbədə qalır;
- K və F alt – üst mərtəbələrdə qalırlar.

Mətnə əsasən aşağıdakılardan hansı <u>mütləq səhvdir</u>?
A) T və L alt – üst mərtəbələrdə qalırlar.
B) A blokunda 2 – ci mərtəbədə F qalır.
C) K və L 3 – cü mərtəbədə yaşayırlar.
D) M K – nın üstündəki mənzildə yaşayır.
E) S 2 – ci mərtəbədə yaşayır.

68. A, B, C, D, E və F şəxslərinin hər birinin bir avtomobili var. Bunlardan üçü ağ, ikisi qırmızı, biri də qara rəngdədir. Məlumdur ki:

- B – nin və C – nin avtomobilləri eyni rəngdədir;
- F – in və E – nin avtomobilləri fərqli rəngdədir;
- A – nın avtomobili ağ rəngdədir.

Mətnə əsasən aşağıdakılardan hansı <u>mütləq səhvdir</u>?
A) B – nin maşını ağdır. B) D – nin maşını qaradır.
C) F – in maşını ağdır. D) C – nin maşını qırmızıdır.
E) E – nin maşını qaradır.

69. 4-dən 10-a qədər ədədləri bir sıraya elə düzmək lazımdır ki, aşağıdakı şərtlər ödənsin.
- 4, 8 və onların arasındakı ədəd(lər)in cəmi 25-ə bərabər olsun;
- 6, 10 və onların arasındakı ədəd(lər)in cəmi 24-ə bərabər olsun;
- 7, 8 və onların arasındakı ədəd(lər)in cəmi 21-ə bərabər olsun;

8 ədədi neçənci yerdə ola bilər?
A) I, II və ya IV B) IV, V və ya VI
C) IV, V və ya VII D) V, VI və ya VII
E) II, IV və ya VII

bilikliol.az

70. Universitetdə bir yerdə oxuyan Mailə, Lalə, Nərgiz və Validə fərqli musiqi alətlərində ifa edir və fərqli dillərdə danışa bilirlər. Məlumdur ki:

- Mailə royalda ifa edir;
- Fransızca danışa bilən skripkada ifa edir;
- Nərgiz almanca danışa bilir;
- Mailə italyan, Validə isə fransız dilini bilmir;
- Lalə arfada ifa etmir;
- Piano ifa edən qız italyan dilini bilmir.

Kim hansı musiqi alətində ifa edir və xarici dilini bilir?

A) Mailə – Royal, ingilis dili
Lalə – Skripka, fransız dili
Nərgiz – Arfa, alman dili
Validə – Piano, italyan dili

B) Mailə – Royal, ingilis dili
Lalə – Skripka, fransız dili
Nərgiz – Piano, alman dili
Validə – Arfa, italyan dili

C) Mailə – Piano, ingilis dili
Lalə – Skripka, fransız dili
Nərgiz – Royal, alman dili
Validə – Arfa, italyan dili

D) Mailə – Skripka, ingilis dili
Lalə – Royal, fransız dili
Nərgiz – Piano, alman dili
Validə – Arfa, italyan dili

E) Mailə – Royal, fransız dili
Lalə – Skripka, ingilis dili
Nərgiz – Piano, alman dili
Validə – Arfa, italyan dili

71. Yarış iştirakçıları Arzu, Bahar, Cəmilə, Davud və Esmira haqqında aşağıdakılar məlumdur:

♦ Cəmilə Arzudan dərhal sonrakı yeri tutmuşdur;
♦ Bahardan sonrakı yeri bir qadın tutmuşdur;
♦ Esmira Davuddan dərhal sonrakı yeri tutmuşdur;

Yarış iştirakçılarından hansılar 4-cü yeri tuta bilər?

A) Arzu və ya Esmira B) Davud və ya Bahar
C) Cəmilə və ya Esmira D) Bahar və ya Cəmilə
E) Arzu və ya Davud

72. Bir evdə beş qardaş var: Tural, Kənan, Vaqif, Adil, Malik. Bunlardan biri kar, biri kor, biri lal, biri axsaq, biri isə dəlidir. Beşi də süfrə arxasında əyləşəndə Tural Malikə deyir:
- Bir də qırmızı geyinmə, sənə yaraşmır !
Kənan soruşur:
- Qırmızı şalvar geyib?
Tural cavab verir:
- Yox, köynək !
Dəli qardaş söhbətə qarışır:
- Nəyinizə lazımdır? Qoy nə istəyir, geyinsin. Bax, Adilin də qalstuku qırmızıdır.

Tapın görək, axsaq qardaş hansıdır?

A) Tural B) Kənan C) Vaqif D) Adil E) Malik

bilikliol.az

73. Əli, Alxaz, Sərxan, Soltanəli, Qurbanəli və onların yoldaşları Solmaz, Xədicə, Rəna, Arzu, Bənövşə söhbət edirlər:
Əli deyir:
- Xədicənin plovundan olmaz. Biz qonaqlıq olanda plov bişirməyə onu dəvət edirik.
Arzu təsdiq edir:
- Əli qardaş düz deyir. Xədicə yaxşı plov bişirir.
Solmazın əri sözə qarışır:
- Ancaq mən daha çox Rənanın xörəklərini bəyənirəm.
Qurbanəlinin yoldaşı ərinə deyir:
- Sən niyə dillənmirsən? Həmişə mənim bişirdiklərimi tərifləyirdin. Görmürsən, yada düşmürəm?
Sual: Əlinin yoldaşı hansıdır?

A) Solmaz B) Xədicə C) Rəna
D) Arzu E) Bənövşə

74. K, L, M, N kompyüterlərindən işlək və ya xarab olması haqqında aşağıdakılar məlumdur:

- K ilə L – dən ən az biri xarabdır;
- L və M – dən biri xarab, digəri isə işləkdir;
- K və N – dən ən çox biri xarabdır.

Bu dörd kompyüterin işlək və ya xarab olması ilə bağlı neçə fərqli fikir söyləmək mümkündür?

A) 2 B) 5 C) 4 D) 3 E) 6

75–**77**-ci sualları verilmiş mətnə əsasən cavablandırın.

Fizika, Kimya, Tarix, Fəlsəfə və Coğrafiya kitabları 1, 2, 3, 4, 5 şəklində nömrələnmiş və bu sıra ilə düzülmüş qutulara yerləşdirilmişdir.

❖ Fəlsəfə kitabları Coğrafiya kitablarından öndə yerləşdirilib.
❖ Fizika və kimya kitabları yan yana yerləşdirilib.

75. Coğrafiya kitabları neçə nömrəli qutuda ola bilməz?

A) 1 B) 2 C) 3 D) 4 E) 5

76. Fəlsəfə kitabları neçə nömrəli qutuda ola bilməz?

A) 1 B) 2 C) 3 D) 4 E) 5

77. 3 nömrəli qutuda Coğrafiya kitabları yerləşdirilibsə, aşağıdakılardan hansı mütləq səhvdir?

A) 4 nömrəli qutuda Kimya kitabları var
B) 1 nömrəli qutuda Tarix kitabları var
C) 5 nömrəli qutuda Tarix kitabları var
D) 4 nömrəli qutuda Fizika kitabları var
E) 5 nömrəli qutuda Fizika kitabları var

78. Kitab rəfində 9 kitab yerləşdirilməlidir. Kitabların dördü S.Vurğunun, ikisi B. Vahabzadənin şeir kitablarıdır. Qalan kitablar dərsliklərdir. Eyni müəllifin şeir kitabları mütləq bir-birinin ardınca, yanaşı yerləşdirilməlidir. əgər altıncı olaraq S. Vurğunun kitabı, səkkizinci olaraq dərslik yerləşdirilirsə, hansı yerdə mütləq B. Vahabzadənin kitabı olacaq?

A) Birinci B) Doqquzuncu C) Üçüncü
D) Dördüncü E) İkinci

79. Orxan, Kərim, Əli, Təyyar, Aydın adlı şəxslərin hansı şəhərlərdə və neçə il yaşadıqları barədə aşağıdakı məlumatlar var. :
Şəhərlər: Bakı, Sumqayıt, Mingəçevir, Gəncə, Quba
Yaşadıqları müddət (il): 12, 13, 14, 16, 18.

- Orxan dostları Aydın, Təyyar və Əlidən daha uzun müddət eyni şəhərdə yaşamışdır;
- Gəncədə yaşayan Kərim, Orxandan 2 il az yaşamışdır;
- Bakıda yaşayan Təyyar Aydından daha az, Əlidən isə daha uzun müddət eyni şəhərdə yaşamışdır;
- Mingəçevirdə yaşayan, Sumqayıtda yaşayandan daha çox, Gəncədə yaşayandan daha az müddət eyni şəhərdə yaşamışdır.

Sumqayıtda yaşayan şəxsin adı nədir ?

A) Aydın B) Təyyar C) Orxan D) Kərim E) Əli

80. 4 dost (Faiq, Yunis, Səfər, Tofiq) və onların 8 uşağı (birinin 1 qızı, digərinin 2 qızı, üçüncünün 3 oğlu və dördüncünün 1 oğlu və 1 qızı) birlikdə istirahətə getdilər. Oğlanların adları Vüqar, Məmməd, Zaur, Rəsul, qızların adları Aytən, Günay, Könül və Nərmindir.
Vüqar qardaşı Zaura dedi:
- Gəl Yunis əminin oğlu ilə balıq tutmağa gedək.
Aytən dedi:
- Bacımla mən də balıq tutmağı sevirik. Keçən il Faiq əminin qızı ilə tez-tez balıq tutmağa gedirdik.
Məmməd bacısına dedi:
- Nərmin, sən də gəl, Günayı da çağır.
Səfər qızına dedi:
- Könül, Rəsulu da özünüzlə aparın.

Faiqin uşağı kim(lər)dir?

A) Günay B) Aytən, Zaur C) Vüqar, Zaur, Rəsul
D) Nərmin E) Məmməd, Nərmin

81. Adil evə gələrək qardaşları Elçin və Elmirə dedi: konsertin vaxtını öyrəndim. indi sizə bir şey deyəcəm, özünüz tapın tarixi: Konsert bu 4 tarixdən birindədir: 14 iyun, 12 iyun, 12 iyul, 13 iyul. Gəlin birinizə ayı, digərinizə günü deyim, və bir birinizə bildiyinizi demədən doğru tarixi tapın: Sonra Adil Elçinə təkcə ayı, Elmirə isə günü dedi. Bir qədər düşündükdən sonra Elmir dedi: "Mən təkcə günü bilirəm, ayı bilmirəm, tapmaq üçün yetərli məlumat yoxdur." Elçin dedi: "Mən isə təkcə ayı bilirəm, günü yox. Amma bir dəqiqə... Madam ki, Elmir ayı bilmədi, o halda mən günü də tapdım. Mən bildim cavabı. Konsert ** iyul tarixindədir." Bu cavab düzgün oldu. indi məsələni diqqətlə oxuyub **-un yerində nə olmalıdır onu tapın.
A) 12 B) 13 C) 14 D) 11-12 E) 12-13

82. Gülnarə Nərminin dayısı oğlu olan Orxanın nənəsidir, amma Nərminin nənəsi deyil. Aşağıdakılardan hansı doğrudur?
A) Nərmin Orxanın əmisi qızıdır.
B) Gülnarə Nərminin ata nənəsidir.
C) Gülnarə Orxanın ana nənəsidir.
D) Gülnarə Orxanın ata nənəsidir.
E) Nərmin Orxanın dayısı qızıdır.

83. Dörd dost Ziya, Rəsul, İman və Amil ikisi eyni fakültədə olmaqla riyaziyyat, kimya və biologiya fakültələrində təhsil alırlar.Ziya və Amil eyni fakültədə oxumurlar. İman kimya fakültəsində oxumur və biologiya fakültəsində oxuyanla eyni fakültədə deyil. Rəsul riyaziyyat fakültəsində oxuyur. Eyni fakültədə oxuyanların adlarını və oxuduqları fakültələrini tapın.
A) İman, Rəsul-biologiya B) Ziya, İman-biologiya
C) İman, Rəsul-riyaziyyat D) Rəsul, Amil-kimya
E) Ziya, İman-riyaziyyat

84. Əgər dünən yox, daha əvvəlki gün yox, daha əvvəlki gün çərşənbə idisə, sabah yox biri gün hansı gün olar?
A) Bazar ertəsi B) Çərşənbə axşamı
C) Çərşənbə D) Şənbə
E) Bazar

85. Mehdinin papağı yaşıl, Amilin qırmızı, Cəmilənin sarı, Afaqın papağı isə göy rəngdədir. Əvvəlcə Amil Afaqla, Cəmilə Mehdi ilə papağını dəyişdi. Daha sonra Afaq Cəmilə ilə, Amil Mehdi ilə papaqlarını dəyişdilər. Uyğun olaraq Mehdi, Amil, Cəmilə və Afaqın papaqlarının rəngini tapın.
A) sarı, göy, yaşıl, qırmızı B) sarı, qırmızı, göy, yaşıl
C) sarı, göy, qırmızı, yaşıl D) göy, sarı, qırmızı, yaşıl
E) göy, qırmızı, yaşıl, sarı

86. Yataqxana gözətçisinin otağında divardan asılan A, B, C, D, E, F, G və K hərfləri ilə işarələnmiş açarlar haqqında aşağıdakılar məlumdur:

- C F-in aşağısında, G-nin sağındadır;
- A-nın aşağısındakı D, B –nin solunda, E-nin isə yuxarısındadır;
- G açarı A-nın yuxarısında, K-nın sağındadır.

Mətnə əsasən aşağıdakılardan hansı *doğrudur*?

A) Ən yuxarıdakı açar F – dir.
B) D – dən yuxarıda 3 açar asılıb.
C) B açarı A – nın sol tərəfində asılıb.
D) A – nın yuxarısında iki açar asılıb.
E) K – nın sağındakı açar B – nin solundadır.

87. Aqil, Vüqar, Cavid və Həsən öz aralarında şahmat və dama üzrə yarış keçirtdilər. Bütün oyunlardan sonra məlum oldu ki:

- Damada ikinci olan şahmatda üçüncü olmuşdur;
- Həsən nə şahmat, nə də dama üzrə sonuncu olmamışdır;
- Heç kəs dama və şahmat üzrə eyni yeri tutmamışdır;
- Aqil nə şahmatda, nə də damada birinci olmayıb;
- Vüqar şahmat üzrə yarışda Həsəndən daha yaxşı nəticə göstərib;
- Aqil damada Həsəndən daha yaxşı nəticə göstərib.

Mətnə əsasən, şahmatda üçüncü, damada isə birinci yerləri kimin tutduğunu müəyyən edin.

A) Aqil – Cavid B) Həsən – Vüqar
C) Cavid – Vüqar D) Həsən – Cavid
E) Aqil – Aqil

bilikliol.az

88. A, B, C, D, E, F şəxsləri kafedə görüşərək bir neçə sifariş vermişdilər. Onlar 2 çay, 4 kofe, 4 paxlava və 1 qoğal istəmişdilər. Bu şəxslərin hər biri bir içki istəmişdi. Bir nəfər şirniyyat yeməmişdir.
Bundan başqa məlumdur ki:

- ❖ A yalnız kofe içmişdir;
- ❖ B qoğal yemişdir;
- ❖ C və E eyni içkilər içmişdir;
- ❖ B və D fərqli içkilər içmişdir.

Aşağıdakılardan hansının çay və paxlava sifariş etdiyi dəqiq məlumdur?
A) F B) E C) D D) B E) B

89. Hər birinin beş cavab variantı (A, B, C, D, E) olan 10 sualın hamısını işarələyən tələbənin cavabları haqqında aşağıdakılar məlumdur:

- 6 və 8 – ci suallara B yazmışdır;
- 2 – ci sualda E, 4 – cü sualda D yazmışdır;
- Ardıcıl iki sualda eyni variantı yazmamışdır;
- Variantlardan ikisi E, dördü D – dir.
- 5 və 7 – ci suallarda E variantı yazmamışdır.

Aşağıdakılardan hansı səhv ola bilər?
A) 9 – cu sualın cavabı D deyil.
B) 10 – cu sualın cavabı E və ya D – dir.
C) 5 – ci sualın cavabı A və ya C – dir.
D) 10 – cu sualın cavabı B deyil.
E) 7 – ci sualın cavabı D – dir.

90. Dayanacaqda dörd nəfər əyləşib: nənə, cavan qız, cavan oğlan və eynəkli kişi. Onlardan birinin əlində it, ikincisinin – uşaq, üçüncüsünün – qəzet, dördüncüsünün isə gül dəstəsi var. Dayanacağın yanında tələbə qız durub. Nənənin əlindəki nə it, nə də gül dəstəsidir. Əlində qəzet tutan adam cavan oğlanla qucağında uşaq olan adamı ilk dəfə görüb. Eynəkli kişinin əlindəki nə qəzet, nə də itdir. Cavan qız eynəkli kişidən solda, gül dəstəsi olan adamdan sağda əyləşib. Əlində kitab tutan adam oturmayıb.
Uşaq kimin qucağındadır?
A) tələbə qızın B) cavan qızın C) nənənin
D) cavan oğlanın E) eynəkli kişinin

91. Olimpiya oyunlarında iştirak edən ölkələrdən biri A, B, C, D və E idman növlərində yarışmış və olimpiyadada cəmi 8 medal qazanmışdır. Bu ölkənin qazandığı medallarla əlaqədar aşağıdakılar məlumdur:

- ❖ A və B- nin hərəsində bir, C, D, və E-nin isə hərəsində 2 medal qazanılmışdır.
- ❖ Qazanılan medalların 3 – ü qızıl, 4- ü gümüş, 1- i isə bürüncdür.
- ❖ A və B – də qızıl medal qazanılmayıb.
- ❖ Bu idman növlərinin hər hansı birində 2 qızıl və ya 2 gümüş medal qazanılmış ola bilər.

D- də qazanılan medallardan biri gümüş, digəri bürünc olarsa, digər medallar haqqında aşağıdakılardan hansı mütləq doğrudur?
A) C –də 1 qızıl, 1 gümüş medal qazanılmışdır.
B) E –də qazanılan medalların 2-sidə gümüşdür.
C) A və B –də gümüş medal qazanılmışdır.
D) C və E – də gümüş medal qazanılmışdır
E) C və E də qazanılan medallar eynidir.

92 – 94 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.

Universitetdə işləyən A,B,C,D,E,F və G adlı işçilərdən ikisi professor, ikisi dosent, digərləri müəllimdir. Onlardan biri 600, ikisi 500, ikisi 400 və ikisi 300 manat maaş alır. Məlumdur ki:

- Heç bir professor dosent və müəllimdən, heç bir dosent isə müəllimdən az maaş almır;
- C,D,F,G qadınlar, A,B,E isə kişilərdir
- Qadınlar ya professor, ya da dosentlərdir
- G professor olmasada, C-nin aldığı maaş qədər maaş alır
- F A-dan 100 manat çox maaş alır

92. Əgər B F-in aldığı qədər maaş alırsa:
A) A,B-nin aldığı qədər maaş alır
B) E C-dən 100 manat az maaş alır
C) B C-dən 200 manat az maaş alır
D) B G-dən 100 manat az maaş alır
E) B D-dən 300 manat az maaş alır

93. Dosentlər kimlərdir?
A) C və B B) D və C C) F və C
D) F və G E) D və G

94. Aşağıdakılardan kimlərin maaşı dəqiq tapılmır?
A) D B) A C) C D) E E)F

bilikliol.az

95. 3 qırmızı, 2 sarı və 2 yaşıl top soldan sağa doğru 1 – dən 7 – yə qədər nömrələnmiş və aşağıdakı qaydalara görə düzülmüşdür:

- ♦ Qırmızı topların nömrələri ardıcıldır;
- ♦ Sarı topların nömrələri ardıcıldır;
- ♦ Yaşıl topların nömrələri isə ardıcıl deyil.

Aşağıdakı nömrələrdən hansı yaşıl toplardqan birinin nömrəsi *ola bilməz*?
A) 3 B) 5 C) 4 D) 6 E) 7

96–98- ci sualları aşağıdakı mətnə əsasən cavablandırın:

Bir tısbağa haqqında aşağıdakılar məlumdur:

- Tısbağa 7 metr getdikdən sonra 2 saat istirahət edir.
- Hər 1 metri 10 dəqiqəyə gedir.

96. Tısbağa hərəkətə başladığı andan etibarən 9 metri neçə dəqiqəyə gedər?
A) 3 saat 20 dəq B) 2 saat 30 dəq C) 2 saat 40 dəq
D) 3 saat 10 dəq E) 3 saat 30 dəq

97. Tısbağa hərəkətə başladığı andan etibarən 3 saat sonraya qədər neçə metr yol gedər?
A) 7 B) 8 C) 9 D) 10 E) 11

98. Tısbağa 9 metr irəliləyib 1 saat istirahət etsəydi, 3 saata neçə metr yol qət edərdi?
A) 15 B) 12 C) 11 D) 10 E) 9

99. Hər həftə dərc olunan bir jurnalda A, B, C, D, E, F mövzularında məlumatlar verilir. Mövzular 1, 2, 3, 4, 5, 6 şəklində nömrələnmiş otaqlarda hazırlanır. Hər mövzu bir otaqda hazırlanır. A, B, C, E mövzuları 2, 4, 5, 6 nömrəli otaqlarda, F, B, C, E mövzuları isə 3, 4, 5, 6 nömrəli otaqlarda hazırlanır. D və F mövzuları uyğun olaraq hansı nömrəli otaqlarda hazırlanıb?

A) 1 və 3 B) 2 və 3 C) 1 və 2
D) 3 və 2 E) 2 və 5

100. 1 – dən 10 – a qədər nömrələnmiş yan – yana yerləşən 10 yerdən qara, ağ və gümüşü rəngli 10 maşın dayanıb. Bu maşınların dayandıqları yerlər haqqında aşağıdakılar məlumdur.

- ❖ Maşınları ikisi qara, 5 – i ağ, 3 – ü gümüşü rəngdədir.
- ❖ 4 nömrəli yerdə gümüşü rəngli maşın dayanır.
- ❖ Qara maşınlar yan – yana dayanır.
- ❖ Ağ maşınların heç biri yan – yana dayanmır.

Aşağıdakı yerlərin hansında qara maşın dayana bilməz?

A) 6 B) 7 C) 8 D) 9 E) 10

101. Bayram, Dadaş, Elçin, Fərəc və Mərdanın hərəsinə maşın məxsusdur. Mərdan və Bayramın maşınları göy, başqalarının maşınlarının rəngi qırmızıdır. Bayram və Elçinin maşınlarının qapılarına çəkilən ağ zolaq oturacaqların üzü ilə eyni rəngdədir. Dadaşın maşınında zolaq göydür, Fərəc və Mərdanın maşınlarında zolaq narıncı rəngdədir. Mərdanın maşınının oturacağının üzü ağdır. Dadaş və Fərəcin avtomobillərində isə göydür. Kimin maşının narıncı zolağı və ağ üzlü oturacağı var?

A) Elçinin B) Mərdanın C) Fərəcin
D) Dadaşın E) Bayramın

102. Beş dost D, S, K, M, Y-özlərinə tilov almağı qərara aldılar. Tilovlar beş rəngdə, yəni qırmızı, göy, ağ, yaşıl və qara rəngdə idi.

- D qırmızı və göy rəngləri xoşlayır.
- M-in göy və yaşıl rənglərdən xoşu gəlir
- K yaşıl tilov aldı.
- Y üstünlüyü qırmızı, göy və qara tilovlara verdi.

S – in tilovu nə rəngdədir?

A) qırmızı B) yaşıl C) göy D) qara E) ağ

103. Əli, Babək, Vəli, Davud və Qədir kağızda soyadları ilə bağlı bir doğru və bir yanlış fikir yazdılar. Davud: Mənim soyadım Məmmədovdur, Babəkin soyadı Xəlilovdur. Əli: Məmmədov familyası mənimkidir, Vəlinin soyadı Bədəlovdur. Babək: Vəlinin soyadı Tələtovdur, mənimki isə Məmmədovdur. Vəli: Mənim soyadım Bədəlovdur, Qədirin soyadı isə Əliyevdir. Qədir: Bəli mənim soyadım Əliyevdir, Əlinin soyadı isə Tələtovdur.

Dostların hər biri hansı soyadı daşıyır?

A) Əli Məmmədov, Vəli Tələtov, Babək Bədəlov, Davud Xəlilov, Qədir Əliyev
B) Əli Tələtov, Vəli Məmmədov, Babək Bədəlov, Davud Xəlilov, Qədir Əliyev
C) Əli Məmmədov, Vəli Tələtov, Babək Xəlilov, Davud Bədəlov, Qədir Əliyev
D) Əli Tələtov, Vəli Məmmədov, Babək Xəlilov, Davud Bədəlov, Qədir Əliyev
E) Əli Xəlilov, Vəli Məmmədov, Babək Tələtov, Davud Bədəlov, Qədir Əliyev

104. Dörd dost: Vaqif, Akif, Aydın və Müşfiq "Tropikal", "Konkordiya", "Florida", "Plaza" adlı dörd müxtəlif otellərdə yerləşdilər.

Məlumdur ki:

- ❖ Vaqif öz dostlarını "Plaza" otelinə və "Tropikal" otelinə ötürdü;
- ❖ "Plaza" otelində yerləşən adam- Akifin ən yaxın dostudur;
- ❖ "Florida" otelində yaşayan, Vaqif və Müşfiq dəniz kənarında görüşür;
- ❖ Akif nahar etmək üçün "Florida" otelinə öz yoldaşının yanına gəlir.

Kim hansı oteldə yaşayır?

A) Vaqif – Tropikal
Akif – Konkordiya
Aydın – Florida
Müşfiq – Plaza

B) Vaqif – Konkordiya
Akif – Tropikal
Aydın – Plaza
Müşfiq – Florida

C) Vaqif – Konkordiya
Akif – Florida
Aydın – Plaza
Müşfiq – Tropikal

D) Vaqif – Konkordiya
Akif – Tropikal
Aydın – Florida
Müşfiq – Plaza

E) Vaqif – Tropikal
Akif – Konkordiya
Aydın – Plaza
Müşfiq – Florida

bilikliol.az

105. Anar, Kamal, Razim, Samir və Elnur bir maşında gedirdilər. Onlar müxtəlif peşələrin nümayəndələridirlər: alman dili müəllimi, karateçi, rəqqas, proqramçı və basketbolçu. Maşının sükanının arxasında alman dili müəllimi, qabaqda onun yanında isə Kamal oturmuşdur. Samir arxada Razim ilə basketbolçunun arasında oturmuşdur. Karateçi Samirlə qonşuluqda yaşayır. Elnur basketbolçunu uşaqlıqdan tanıyır. Samir və Kamal rəqs etmirlər. Elnur hansı peşənin sahibidir?

A) alman dili müəllimidir B) basketbolçudur
C) karateçidir D) proqramçıdır
E) rəqqasdır

106. Gülnar, Orxan, Mahir, Rəvan, Könül, Nəzrin, Ceyhun və Səidə kitabxandan informatika, pedaqoqika, riyaziyyat və tarix kitabları götürüblər (hər biri yalnız 1 kitab olmaqla).

- Hər kitabdan iki ədəd götürülmüşdür;
- Orxan tarix kitabını götürmüşdür;
- Mahir və Könülün götürdükləri kitablar eynidir;
- Gülnar və Səidə müxtəlif kitabları götürüblər;
- Riyaziyyat kitablarını götürənlər oğlanlardır;
- Mahir informatika kitabını götürməmişdir.

Aşağıdakılardan hansında Nəzrinin götürə biləcəyi kitab və ya kitablar düzgün göstərilib?

A) informatika və ya tarix
B) informatika
C) pedaqoqika
D) informatika və ya riyaziyyat
E) pedaqoqika və ya tarix

107. Üç müəllimə - İradə, Kamilə, Nigar kimya, biologiya fizika ixtisaslarından Bakı, Sumqayıt, Gəncə məktəblərində dərs deyirlər.
Məlumdur ki: İradə Bakıda, Kamilə isə Sumqayıtda işləmir. Bakıda işləyən müəllimə fizikadan dərs demir. Sumqayıtda dərs deyən müəllimə kimyadan dərs deyir. Kamilə biologiyadan dərs demir. Hər müəllimə hansı fəndən və hansı şəhərdə dərs deyir?

A) İradə: Kimya, Sumqayıt
Kamilə: Fizika, Bakı
Nigar: Biologiya, Gəncə
B) İradə: Kimya, Sumqayıt
Kamilə: Fizika, Gəncə
Nigar: Biologiya, Bakı
C) İradə: Kimya, Sumqayıt
Kamilə:Biologiya, Gəncə
Nigar: Fizika, Bakı
D) İradə: Biologiya, Sumqayıt
Kamilə: Fizika, Gəncə
Nigar: Kimya, Bakı
E) İradə: Fizika, Gəncə
Kamilə:Biologiya, Sumqayıt
Nigar: Kimya, Bakı

108. Aynur, Lalə və Dilarə adlı üç rəfiqə mağazadan armud, alma və gavalı aldılar, həm də qızların hər biri yalnız bir növ meyvə aldı və bütün bazarlıqlar fərqli oldu. Kimin nə aldığı sualına, növbədə dayanan alıcılar belə cavab verdilər:

1. Aynur armud aldı;
2. Lalənin aldığı armud deyildi;
3. Dilarənin aldığı gavalı deyildi;

Sonra aydın oldu ki, üç cavabdan ikisi yanlış və yalnız biri doğru imiş.

Kim hansı meyvədən almışdı?

A) Aynur-armud, Lalə-alma, Dilarə-gavalı
B) Aynur-armud, Lalə-gavalı, Dilarə-alma
C) Aynur-gavalı, Lalə-alma, Dilarə-armud
D) Aynur-gavalı, Lalə-armud, Dilarə-alma
E) Aynur-alma, Lalə-armud, Dilarə-gavalı

109. Yazıçı qadın Dilarə Əliyevanın üç qızı Cəmilə, Aynur və Lalə çox istedadlıdırlar. Onlar fərdi incəsənət növlərində; oxumada, baletdə və kinoda şöhrət qazanıblar. Onlar hamısı müxtəlif şəhərlərdə yaşayırlar, buna görə Dilarə tez-tez onlara Parisə, Romaya və Çikaqoya zəng edir.
Müəyyəndir ki:

- Cəmilə Parisdə, Lalə isə Romada yaşamır;
- Parisli qız kinoda çəkilmir;
- Romada yaşayan qız müğənnidir;
- Lalə baletə qarşı laqeyddir;

Aynur harada yaşayır və onun peşəsi nədir

A) Roma, müğənni B) Paris, balet
C) Çikaqo, kino D) Roma, balet
E) Paris, kino

bilikliol.az

110–113-cü sualları aşağıdakı mətnə əsasən cavablandırın.

Məşhur bir rəssamın əsərlərinin sərgiləndiyi bir rəsm qaleriyasında, əsərlər 6 ayrı salona yerləşdirilmiş və salonlar A, B, C, D, E və F kimi adlandırılmışdır. Sərgini hazırlayanlar, ziyarətlərin daha səmərəli keçməsi üçün salonlar arası keçidləri müəyyən qaydalara əsasən düzəldiblər.

- Sərgiyə hər salondan giriş var. Çıxış isə yalnız B və E salonlarındandır.
- Salonlar arası keçid bir istiqamətlidir.
- A salonundan yalnız F və C salonlarına keçid var.
- F salonundan yalnız D salonuna, C salonundan yalnız B salonuna keçid var.
- D salonundan yalnız E salonuna, E salonundan isə yalnız B və C salonlarına keçid var.

110. Bütün salonları gəzmək istəyən bir ziyarətçi salonlardan hansı ardıcıllıqla keçməlidir.
A) A – C – B – D – E – F B) A – C – D – F – B – E
C) A – F – D – E – C – B D) A – F – D – C – B – E
E) A – F – C – B – D – E

111. Sərgiyə F salonundan girən bir ziyarətçi üçün aşağıdakılardan hansı mütləq səhvdir?
A) A salonunu ziyarət edib B) D salonunu ziyarət edib
C) C salonunu ziyarət edib D) E salonundan çıxıb
E) B salonundan çıxıb

112. Sərgiyə D salonundan girən bir ziyarətçi üçün aşağıdakılardan hansı mütləq doğrudur?
A)F salonunu ziyarət edib
B)C salonunu ziyarət edib
C) Ən az 2 salonu ziyarət edib
D)E salonundan çıxıb
E)5 salonu ziyarət edib

113. Sərgiyə C salonundan girən bir ziyarətçi üçün aşağıdakılardan hansı doğrudur?
A) Ən az 3 salonu ziyarət edib
B) Ən çox 4 salonu ziyarət edib
C) E salonundan çıxıb
D) F salonunu ziyarət edib
E) B salonundan çıxıb

114. A, M, F, S, Z, K, V, T şəxləri iki qrupa ayrılıb, səyahətə gedəcəklər. Məlumdur ki:
– Hər qrupda 4 nəfər var;
– K T ilə eyni qrupda deyil;
– Z S ilə bir qrupdadır;
– M A ilə deyil, V ilə eyni qrupdadır.

Mətnə əsasən, aşağıdakılardan hansılar Z – in olduğu qrupda mütləq yoxdur?

A) M, V, F B) T, S C) M, T
D) F, K E) A, F

115. Emil, Hüseyn, Nadir, Orxan, Rəna və Kəmalənin ixtisasları haqqında aşağıdakılar məlumdur:

- Onlardan üçü müəllim, ikisi həkim və biri hüquqşünasdır;
- Emil ilə Rənanın və Hüseyn ilə Orxanın peşələri eynidir;
- Qızların ixtisasları fərqlidir;
- Kəmalə müəllim deyil.


Aşağıdakılardan hansı mütləq doğrudur?
A) Emil müəllimdir. B) Hüseyn həkimdir.
C) Orxan həkimdir. D) Kəmalə hüquqşünasdır.
E) Rəna müəllimədir.

116. Eyni universitetdə təhsil alan Aytən, Bəhram, Ceyran, Rauf və Eldar adlı tələbələrdən 4 – ü ingilis, 3 – ü fransız, 2 – si rus və 1 – i alman dilini bilir.
Məlumdur ki:

- Hər tələbə 2 dil bilir;
- Fransız dilini bilənlərdən biri qız, ikisi isə oğlandır;
- Bəhram Eldarla yalnız ingilis dilində danışa bilir;
- Aytən və Rauf eyni dilləri bilirlər;

Mətnə əsasən kimlərin hansı dili bildiyi *dəqiq* məlumdur?
A) Aytən, Ceyran, Rauf B) Ceyran, Eldar, Rauf
C) Bəhram, Rauf, Eldar D) Aytən, Bəhram, Eldar
E) Bəhram, Ceyran, Eldar

117. Aşağıda 9 evdən ibarət məhəllənin planı verilmişdir. Evlər tikilmə ardıcıllığına görə 1-dən 9-a qədər nömrələnmişdir.




- 3 nömrəli ev mərkəzdə tikilmişdir;
- 9 nömrəli evin sağında, 2 və 8 nömrəli evlər, arxa tərəfində isə 4 və 7 nömrəli evlər tikilməmişdir;
- 6 nömrəli evin önündə 1 nömrəli ev, arxasında isə 2 nömrəli ev sol tərəfində də daha iki ev tikilmişdir.

Mətnə əsasən aşağıdakılardan hansı *mütləq doğrudur*?

A) 9 nömrəli evin arxasında 5 və 8 nömrəli evlər tikilib
B) 5 nömrəli evin solunda 4 nömrəli ev tikilmişdir
C) 3 nömrəli evin sağında 6 nömrəli ev, solunda isə 5 nömrəli ev tikilib
D) 9 nömrəli evin sağında 2 nömrəli ev tikilib
E) 5 nömrəli evin tikildiyi yer dəqiq məlumdur.

bilikliol.az

118 – 120 - saylı tapşırıqları mətnə əsasən cavablandırın:



Sxemdə şəhər mərkəzindən qəsəbələrə getmək üçün yollar göstərilib. Mərkəzdən yalnız A qəsəbəsinə birbaşa yol var. Mərkəzlə A qəsəbəsi arasındakı məsafə və qonşu qəsəbələr arasında (sxemdə göstərilən) məsafələrin hər biri 10 kilometrdir (qəsəbələrarası məsafələr qəsəbə mərkəzlərindən hesablanır).

10 nəfər şəhər mərkəzindən çıxaraq hər biri fərqli qəsəbəyə gedib. Məlumdur ki:

- 1-ci şəxs 50 km, 5-ci şəxs 40 km yol getmişdir;
- 3-cü şəxs 2-ci şəxsin getdiyi yoldan dörd dəfə çox yol qət etmişdir;
- 7-ci şəxs ən çox yol getmişdir.

(Qeyd: hərəkət yalnız sxemdə göstərilən oxlar istiqamətində baş verib.)

118. Aşağıdakılardan hansı mütləq doğrudur?
A) 4-cü şəxs F qəsəbəsinə gedib
B) 2-ci şəxs B qəsəbəsinə gedib
C) 6-cı şəxs 30 km yol gedib
D) 10-cu şəxs K qəsəbəsinə gedib
E) 8-ci şəxs 60 km yol gedib

119. 8-ci şəxs 6-cı şəxsin getdiyi yoldan 10 km çox yol gedibsə, aşağıdakılardan hansı doğrudur?
A) 8-ci şəxs 90 km yol gedib
B) 8-ci şəxs K qəsəbəsinə gedib
C) 8-ci şəxs 9-cu şəxsdən 2 dəfə çox yol gedib
D) 6-cı şəxs F qəsəbəsinə gedib
E) 10-cu şəxs F qəsəbəsinə gedib

120. Aşağıdakılardan hansı mütləq səhvdir?
A) 8-ci şəxs A qəsəbəsinə getməyib
B) 9-cu şəxs 70 km yol gedib
C) 3-cü şəxs H qəsəbəsinə gedib
D) 3-cü şəxs K qəsəbəsinə gedib
E) 8-ci şəxs F qəsəbəsinə gedib

121. Bir üzündə A, B, C, D, E, F hərfləri, digər üzündə isə 1,2, 3, 4, 5, 6 rəqəmləri yazılı olan altı kartın ikisi qara, ikisi yaşıl, ikisi ağdır. Bu kartlarla əlaqədar aşağıdakılar məlumdur:

⇒ C kartında 3, D kartında 2, A kartında 1 yazılıb;
⇒ B cə C kartları yaşıl rəngdədir;
⇒ A qara, E ağ rəngdədir;
⇒ Yaşıl rəngli kartlarda 3 və 4 rəqəmləri yazılıb.

Ağ rəngli kartların üzərindəki rəqəmlərin cəmi aşağıdakılardan hansı ola bilər?
A) 11 B) 5 C) 9 D) 6 E) 10

122. Ayşən və Aytən oyun oynayırlar. Ayşən fikrində üçrəqəmli bir ədəd tutur, Aytən isə müxtəlif ədədlər yazaraq onu tapmağa çalışır. Ayşən Aytənin yazdığı hər ədəd üçün + və - işarələriylə ədədə nə qədər yaxınlaşmasını bildirən ipucları verir. + işarəsi yazılan ədəddəki hər hansı bir rəqəmin axtarılan ədəddə eyni mərtəbədə olduğunu, - işarəsi isə yazılan ədəddəki hər hansı bir rəqəmin axtarılan ədəddə fərqli mərtəbədə olduğunu bildirir. (İşarələrin sayı tapılan rəqəmlərin sayına müvafiqdir.)
Nümunə:

Yazılan ədədlər	İpucları
241	**--**
168	+
945	+
125	+++

Ayşənin fikrində tutduğu ədədi tapın**:**

Yazılan ədədlər	İpucları
146	+ -
675	**--**
456	+

123. Universitetdə yanvar ayı ərzində 5 fərqli müəllim, 5 fərqli fəndən imtahan götürmüşdür. Imtahan tarixləri, fənlərin adı və müəllimlərin adı ilə bağlı aşağıdakılar məlumdur :

Müəllimlər : Aişə, Əli, Bahar, Rəhim, İradə
İmtahan tarixləri : 2 yanvar, 5 yanvar, 12 yanvar, 25 yanvar, 27 yanvar
Fənlər : Fizika, Həndəsə, Cəbr, Kimya, Fəlsəfə

- ✓ Həndəsə imtahanı 27 yanvarda keçirilməmişdir.
- ✓ Rəhim müəllim imtahanı 25 yanvarda keçirməmişdir.
- ✓ Aişə müəllimin imtahanından sonrakı imtahanı Əli müəllim keçirmişdir.
- ✓ Fizika imtahanından 3gün sonra Cəbr imtahanı keçirilmişdir.
- ✓ Fəlsəfə imtahanı Bahar müəllimənin keçirtdiyi imtahandan 20 gün sonra, Əli müəllimin keçirtdiyi imtahandan iki gün əvvəl olmuşdur.
- ✓ İlk imtahan keçirən müəllim qadın deyil.

Birinci və axırıncı imtahanlar hansı fənlərdən olmuşdur ?
A) Fizika, Kimya B) Cəbr, Həndəsə
C) Kimya, Cəbr D) Kimya, Fəlsəfə
E) Fəlsəfə, Cəbr

bilikliol.az

124 – 126 saylı tapşırıqları mətnə əsasən həll edin:

İnformatika müəllimi həftədə beş gün (I-V günlər) məktəbin dörd X (X^a, X^b, X^c, X^d) və dörd XI sinfinə (XI^a, XI^b, XI^c, XI^d) dərs deyir. Cədvələ görə müəllim hər gün iki saat – bir saat X və bir saat XI sinfə dərs keçir. Yalnız bir X və bir XI sinfin həftədə 2 saat, digər siniflərin həftədə 1 saat informatika dərsi olur.
Məlumdur ki, müəllimin:

- çərşənbə günü X^a sinfində dərsi var;
- XI^b sinfində həftədə yalnız bir dəfə dərsi var;
- XI^b sinfində dərsi olan gün X^c sinfində də dərsi var;
- bazar ertəsi günü X^d və XI^a siniflərində dərsi var;
- çərşənbə axşamı və cümə axşamı günləri eyni bir XI sinifdə dərsi var;
- cümə axşamı və cümə günləri eyni bir X sinifdə dərsi var.

124. Aşağıdakılardan hansını müəyyən etmək mümkündür?
1) X siniflərdən hansına müəllimin həftədə iki saat dərsinin olmasını
2) XI siniflərdən hansına müəllimin həftədə iki saat dərsinin olmasını
3) cümə günü müəllimin X siniflərdən hansına dərsinin olmasını
4) hansı günlər müəllimin XI^d sinfinə dərsinin olmasını
A) yalnız 3, 4 B) yalnız 1, 2 C) 1, 3, 4
D) yalnız 1, 3 E) 1, 2, 3

125. Müəllimin cümə axşamı ya ... , ya da ... sinfində dərsi var.
A) XI^c XI^d B) XI^b XI^c C) XI^a XI^d
D) XI^a XI^b E) XI^a XI^c

126. Müəllimin çərşənbə günü XI^b sinfinə dərs demə ehtimalını tapın.
A) 0 B) 2 C) 2/3 D) 1 E) 0.5

127. Cəmi 5 sual soruşulan bilik yarışına 25 iştirakçı qatılmışdır. Bu yarışda qiymətləndirmə aşağıdakı kimi aparılmışdır:

- ❖ Bir suala doğru cavab verən iştirakçı, həmin suala səhv cavab verən iştirakçıların sayının iki misli qədər bal alıb;
- ❖ Suala səhv cavab verən iştirakçıya bal verilməmişdir.

Aşağıdakı cədvəldə sual nömrələri, həmin suala düzgün və səhv cavab verən iştirakçıların sayı verilmişdir.

Sual nömrəsi	Düzgün cavab verənlərin sayı	Səhv cavab verənlərin sayı
1	11	14
2	16	9
3	4	21
4	8	17
5	2	23

Mətnə əsasən, ancaq üç suala düzgün cavab verən iştirakçı aşağıdakı ballardan neçəsini toplaya bilməz?
1) 88 2) 122 3) 90 4) 94 5) 108

128. Rahim dostları Asif, Davud, Əli, Bəhram və Xəqani haqqında danışır. O, əvvəlcə onların 45, 44, 43, 40 və 38 yaşlarında olduqlarını qeyd edir. Sonra onların həkim, mühəndis, pedaqoq, iqtisadçı və sosioloq olduqlarını əlavə edir. Məlum olur ki, Bəhram Davuddan kiçikdir, Asifdən isə böyükdür. Nə Əli, nə Xəqani Asifdən böyük deyil. Xəqani yaşca ən kiçik olan deyil. Həkim olan nə Əlidir,nə də Davud. Xəqani nə sosioloqdur, nə də iqtisadçı. Yaşca ən kiçik olan sosioloqdur. Yaşca ən böyük olan nə pedaqoqdur, nə də iqtisadçı. Bəhram iqtisadçı, Xəqani isə pedaqoq deyil. Mətnə əsasən, Asif, Davud, Əli, Bəhram və Xəqaninin yaşlarını və ixtisaslarını təyin edin.

A) Asif – 43, iqtisadçı
Davud – 45, mühəndis
Əli – 38, sosioloq
Bəhram – 44, pedaqoq
Xəqani – 40, həkim

B) Asif – 43, həkim
Davud – 45, mühəndis
Əli – 38, sosioloq
Bəhram – 44, iqtisadçı
Xəqani – 40, pedaqoq

C) Asif – 44, iqtisadçı
Davud – 45, mühəndis
Əli – 38, sosioloq
Bəhram – 43, pedaqoq
Xəqani – 40, həkim

D) Asif – 45, həkim
Davud – 45, iqtisadçı
Əli – 38, sosioloq
Bəhram – 44, mühəndis
Xəqani – 40, sosioloq

E) Asif – 38, pedaqoq
Davud – 40, sosioloq
